

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 86 (21.747)

*6 may 2017-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Mayın 5-də UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, ISESCO-nun tərəfdaşlığı ilə Bakıda “Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar” mövzusunda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Heydər Əliyev Mərkəzində rəsmi açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

* * *

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə səfərdə olan Mali Respublikasının Prezidenti İbrahim Boubakar Keita ilə görüşüb.

* * *

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva UNESCO-nun baş direktoru xanım İrina Bokova ilə görüşüblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifai ilə görüşüb.




## Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə tədbirlər keçirilib



***Bu münasibətlə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı “Ümummilli lider və Yeni Azərbaycan Partiyası” mövzusunda elmi-praktik konfrans keçirib.***

Konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov “Ulu öndər Heydər Əliyev və Yeni Azərbaycan Partiyası” mövzusunda çıxış edərək bildirib ki, Azərbaycan xalqının ümummilli lideri müasir tariximizə dahi xilaskar, böyük qurucu kimi daxil olub. 25 il bundan əvvəl Azərbaycanı böyük təhlükələrdən xilas etmək üçün ulu öndərin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv tarixi zərurət idi. 1992-ci il oktyabrın 16-da 91 nəfər tanınmış Azərbaycan ziyalısının ümummilli liderə ünvanladığı “Azərbaycan Sizin sözünüzü gözləyir” adlı müraciətin “Səs” qəzetində dərc olunması partiyanın təşkili istiqamətində ilk tarixi addım idi. Ulu öndər müraciətə cavabında ölkəmizin qarşısında duran təxirəsalınmaz vəzifələri müəyyənləşdirərək Yeni Azərbaycan Partiyasının yaradılmasının zəruriliyini bildirdi və onun fəaliyyətində iştiraka hazır olduğunu bəyan etdi. Bu, sadə xalq kütlələrində ruh yüksəkliyi yaratsa da, həmin dövrdə Azərbaycanda hakimiyyətdə olan qüvvələr dahi şəxsiyyətin rəhbərliyi ilə yeni bir siyasi təsisatın yaranmasının əleyhinə idilər. Lakin ümummilli liderin hakimiyyətə qayıdışı artıq qarşısıalınmaz tarixi zərurət və yekdil sosial sifariş idi. Ozamankı iqtidarın gücü yalnız partiyanın təsis konfransının Bakıda keçirilməsinin qarşısını almağa çatdı. 1992-ci il noyabrın 21-də Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasında ölkənin ayrı-ayrı bölgələrindən cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən 550 nəfərdən artıq nümayəndənin iştirakı ilə təsis konfransı keçirildi. Konfransda dahi rəhbər Heydər Əliyev yekdilliklə Yeni Azərbaycan Partiyasının Sədri seçildi, təşkilatın Nizamnaməsi və Proqramı qəbul edildi. Tarixi zərurət və yekdil sosial sifariş, güclü lider və zəngin dövlətçilik təcrübəsi, uzaq hədəflərə hesablanmış siyasi-ideoloji baza qısa müddətdə Yeni Azərbaycan Partiyasının sıralarının genişlənməsini, əsas milli, kütləvi partiyaya çevrilməsini şərtləndirdi.

Qeyd olunub ki, 1993-cü ildən bəri Yeni Azərbaycan Partiyası müstəqil dövlətimizin inkişafını uğurla təmin edən hakim partiyadır. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev bu partiyanın üzvü olmağı milli dövlətçiliyə xidmət nümunəsi kimi qiymətləndirərək deyirdi: ***“Yeni Azərbaycan Partiyasına xidmət etmək Vətənə, millətə, müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir”.***

Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Hüseyn Həşimli “Ümummilli lider Heydər Əliyevin vətənpərvərlik təlimi və Yeni Azərbaycan Partiyası”, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının üzvü Aytən Məmmədova “Ulu öndər Heydər Əliyev və Azərbaycan qadını”, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli “Ümummilli lider Heydər Əliyevin siyasi fəlsəfəsi və Yeni Azərbaycan Partiyası” mövzularında çıxış ediblər.

Çıxışlarda bildirilib ki, görkəmli dövlət xadiminin hakimiyyət fəlsəfəsinin əsasını Azərbaycan xalqının tarixən formalaşmış azadlıq idealı və müstəqilliyini qorumaq əzmi təşkil edir. Dahi rəhbər həmişə belə bir ideyanı aşılamağa çalışmışdır ki, millətin tarixi inkişafının səviyyəsi xalqın siyasi iradəsindən və dövlət başçısının insani keyfiyyətlərindən asılıdır. Ulu öndər özünün siyasət fəlsəfəsinin mühüm tərkib hissəsi olaraq milli müstəqilliyi möhkəmləndirmək və inkişaf etdirmək strategiyasını zamanın buna ehtiyac duyduğu bir məqamda işləyib hazırlamış və bu strategiyanın siyasi təşkilatı olaraq 1992-ci ildə Yeni Azərbaycan Partiyasını yaratmışdır. Dahi şəxsiyyətin hakimiyyət fəlsəfəsinin obyektiv elmi və siyasi prinsipləri Azərbaycanın bugünkü və gələcək müstəqilliyinin möhkəm əsaslarının yaradılmasında mükəmməl ideoloji zəmin rolunu oynayıb.

Konfransda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş slaydlar və “Azərbaycan qədər əbədi” filmi nümayiş etdirilib.

**✍ Səbuhi HƏSƏNOV**

* * *

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının keçirdiyi tədbiri giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev açaraq qeyd edib ki, xalqımızın iftixarı, hələ sağlığında ikən bütün dünya azərbaycanlılarının ümummilli liderinə və inam mənbəyinə çevrilmiş ulu öndər Heydər Əliyevin ideyaları və əməlləri qəlbimizdə yaşayır və daim yaşayacaqdır.



Müstəqil Azərbaycan dövlətçiliyinin banisi olan ulu öndərin xalqımız və ölkəmiz üçün gördüyü işlər əsrlər keçsə də, tarixi dəyərini itirməyəcək. Görkəmli dövlət xadiminin siyasi-mənəvi irsi təkcə xalqımızın deyil, bəşəriyyətin zəngin xəzinəsinə çevrilib. Məhz bu amilləri nəzərə alsaq, müasir Azərbaycan tarixini ümummilli lider Heydər Əliyevin çoxsahəli zəngin ictimai-siyasi və dövlətçilik fəaliyyətindən ayrı təsəvvür etmək mümkün deyil.

Tədbirdə Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı İdarə Heyətinin üzvü Vaqif Cabbarov, Yengicə kənd tam orta məktəbinin direktoru Elmira Rzayeva və kənd ərazi ilk partiya təşkilatının sədri Vaqif Cavadov çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, ulu öndər Heydər Əliyev Azərbaycan tarixinə müstəqilliyimizin memarı, dövlətçiliyimizin xilaskarı kimi düşüb. Ümummilli lider Azərbaycançılıq ideyasının müasir dövrümüzdə yaradıcısı olub, Vətənin müstəqilliyi, yüksəlişi, xalqın milli və mənəvi tərəqqisi, Azərbaycan səhiyyəsinin, təhsilinin inkişafı, qadınların və gənclərin ölkənin sosial-iqtisadi və ictimai-siyasi həyatında fəal iştirakının təminatçısı kimi möhtəşəm işlər həyata keçirib. Ölkəmizdə iqtisadiyyatın, mədəniyyətin, incəsənətin, ədəbiyyatın, idmanın inkişafı, dövlət gənclər siyasətinin təməli də onun adı ilə bağlıdır.

Vurğulanıb ki, muxtar respublikamız ümummilli liderimiz Heydər Əliyev ideyalarının işığında özünün yeniləşən inkişaf mərhələsindədir. Bu gün Naxçıvan geniş quruculuq meydanını xatırladır. İqtisadi yüksəliş, çoxşaxəli dinamik inkişaf aydanaya, ildən-ilə Azərbaycanımızın bu qədim diyarına yeniliklər gətirir. Təhsil, səhiyyə, mədəniyyət, idman sahələrində yeni islahatlar həyata keçirilir, bu islahatların nəticəsi olaraq hər il yeni məktəb, xəstəxana binaları, mədəniyyət müəssisələri, həkim ambulatoriyaları və tibb məntəqələri, geniş idman qurğuları istifadəyə verilir. Dövlət gənclər və qadın siyasəti öz uğurlu nəticələrini göstərir. Bütün bunlar Naxçıvanda ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş uğurlu siyasətin davam etdirilməsi, bu yola sədaqətin əyani təsdiqidir.

Tədbirdə şagirdlər ümummilli liderə həsr olunmuş şeirləri bədii qiraət edib, Yeni Azərbaycan Partiyasının sıralarına qəbul olunan bir neçə gəncə üzvlük vəsiqələri təqdim edilib.

**Elman MƏMMƏDOV**

* * *

***Naxçıvan Müəllimlər İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş “Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi” mövzusunda elmi-praktik konfrans keçirilib.***

Konfransın plenar iclasında institutun elmi işlər üzrə prorektoru, professor Yaqub Məmmədov çıxış edərək ulu öndərimizin təhsilin inkişafı sahəsində gördüyü işlərdən, qazanılan uğurlardan, muxtar respublikada son illərdə yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi ilə bağlı əldə edilən nailiyyətlərdən danışıb. O bildirib ki, Azərbaycan təhsilinin inkişafı görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ölkəmizə rəhbərliyinin hər iki dövründə təhsilin müasir tələblər səviyyəsində qurulmasına böyük önəm verib. ***“Təhsil millətin gələcəyidir”***, – deyən görkəmli dövlət xadimi təhsildə yeni uğurlar qazanmaq üçün həmişə müasir metodların, yeni texnologiyaların, dünya təcrübəsinin tətbiqini diqqətdə saxlamağı tövsiyə edirdi. Odur ki, bu gün Azərbaycan təhsilində əldə olunmuş nailiyyətlərə görə xalqımız məhz ümummilli lider Heydər Əliyevə borcludur.



Sonra ali təhsil ocağının tədris işləri üzrə prorektoru, professor Akif İmanlının “Dilimizin status məsələsi və Heydər Əliyev qətiyyəti”, institutun Humanitar və təsviri incəsənət kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Ələkbər Cabbarlının “Azərbaycanda multikulturalizm ənənəsinin formalaşmasında və inkişafında Heydər Əliyev siyasətinin rolu”, Şərur rayon Zeyvə kənd tam orta məktəbinin rus dili müəllimi Fərmayıl Əsgərovun “Məktəbəqədər dövrdə uşaqlara yanaşma tərzi”, Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin müəllimi İlhamə Quliyevanın “Riyaziyyat fənninin tədrisində kəmiyyətlər və kəmiyyət vahidlərinin öyrədilməsi texnologiyaları” mövzularında məruzələri dinlənilib.

Məruzələrdə qeyd edilib ki, bu gün də uğurla davam etdirilən ulu öndər Heydər Əliyevin təhsil siyasəti məktəblərdə təlim şəraitinin yaxşılaşmasına, tədrisin keyfiyyətinin yüksəlməsinə və müəllimlərin pedaqoji ustalığının artmasına səbəb olub, ulu öndərimizin bu sahənin inkişafı ilə bağlı sərəncamları təhsil sahəsində gedən proseslərdə istiqamətverici rol oynayıb.

Sonra konfrans öz işini dörd bölmə üzrə iclaslarla davam etdirib. Bölmə iclaslarında ölkənin, eləcə də muxtar respublikanın ali, orta ixtisas və ümumtəhsil müəssisələrində çalışan qabaqcıl pedaqoqların məruzələri dinlənilib.

**Nail ƏSGƏROV**

İcmal

# Muxtar respublikada strateji inkişaf hədəfləri reallaşdırılır

## *Ötən ayın mənzərəsi də belə deməyə əsas verir*

***Ekspertlərin ümumi rəyi belədir ki, hər bir ölkənin və ya məkanın gələcək inkişaf perspektivləri xüsusilə iki mühüm amildən asılıdır. Onlardan birincisi enerji, digəri isə ərzaq təhlükəsizliyidir. Sevindirici haldır ki, bu gün muxtar respublikamızda hər iki sahədə böyük nailiyyətlər əldə olunub. Keçən əsrin 90-cı illərinin ağır, böhranlı günlərində enerji qıtlığı ilə üzləşən muxtar respublika bu gün enerji ixracatçısına çevrilib. Ötən illər ərzində ərzaq təhlükəsizliyi istiqamətində də mühüm nailiyyətlər əldə edilib, daxili bazarda məhsul bolluğu yaranıb. Hazırda muxtar respublikada 367 növdə məhsul istehsal olunur. Bu məhsulların 121 növü ərzaq məhsullarıdır. 107 növdə ərzağa olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilir. Dünyada geni modifikasiya olunmuş sağlamlığa zərərli məhsulların ayaq tutub yeridiyi bir dövrdə muxtar respublikada əhali ekoloji cəhətdən təmiz yerli kənd təsərrüfatı məhsullarıyla təmin olunur. Etibarlı ərzaq təminatı sisteminin yaradılması ixrac potensialını da artırıb.***



Muxtar respublikada kənd təsərrüfatında yeni innovasiyaların tətbiqi bu gün öz müsbət nəticələrini verir. Məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunub. Aprelin 4-də Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında imzalanmış texniki-iqtisadi əməkdaşlıq sazişi çərçivəsində Naxçıvan Muxtar Respublikası "Bərəkət Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin toxumçuluq təsərrüfatına yeni kənd təsərrüfatı texnikaları və toxumçuluq laboratoriyası avadanlıqları təqdim olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua bu münasibətlə keçirilən tədbirdə iştirak ediblər.

İki min hektar sahədə yeni metodlarla əkin və becərmə işlərinin aparılması məqsədilə gətirilən 33 adda 80 kənd təsərrüfatı texnikası yüksək iş göstəricilərinə malikdir. Yeni alınan toxumçuluq laboratoriyasında isə yüksək məhsuldarlığa malik, xəstəliyə, ziyanvericilərə və yerli iqlim şəraitinə dözümlü toxum sortları yetişdiriləcək, toxumların genofonduna və seleksiyasına nəzarət olunacaqdır. Toxumçuluq təsərrüfatında bütün işlərin elmi əsaslarla aparılması, aqrotexniki qaydalara əməl edilməsi, məhsuldar toxum sortları yetişdirilərək tətbiq olunması vəzifə kimi qarşıya qoyulub.

Rentabelli suvarma şəbəkələrinin qurulması əkinçiliyin inkişafında vacib şərtdir. Torpaq və su ehtiyatlarından səmərəli istifadə, bol məhsul istehsalı məqsədilə görülən işlərin davamı olaraq "Bərəkət Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin toxumçuluq təsərrüfatının Kəngərli rayonunun Böyükdüz kəndindəki əkin sahələrinin 400 hektarında yeni qapalı suvarma şəbəkəsi qurulacaqdır. Aprelin 22-də Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin layihəsinə və tikinti aparılacaq əraziyə baxıb.

Qeyd edək ki, son 3 ildə muxtar respublikada 3100 hektar sahədə qapalı suvarma şəbəkəsi qurulub. Yeni qurulan qapalı suvarma şəbəkəsi də ərazinin su təminatını yaxşılaşdıracaq, şoranlaşmaya və su itkisinə yol vermədən əkin sahələri tələb edilən miqdarda suvarma suyu ilə təmin olunacaqdır.

Sağlamlıq hər bir insan üçün böyük sərvətdir. Əhalinin sağlamlığının qorunması istiqamətində görülən tədbirlərdən biri də idmanın kütləviliyinə nail olunmasıdır. Son illər həyata keçirilən məqsədyönlü tədbirlər, idman obyektlərinin maddi-texniki bazasının gücləndirilməsi, müxtəlif idman federasiyaları üzrə klubların yaradılması, özəl fitnes mərkəzləri və müxtəlif idman klublarının fəaliyyətə başlaması bu sahəyə qızların da marağını artırıb. Son illər yaradılan və səmərəli fəaliyyət göstərən idman klublarından biri də "Xatun" Bədii Gimnastika Klubudur. 2017-ci il yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə verilən tapşırıqlara uyğun olaraq "Xatun" Bədii Gimnastika Klubunun Şərur Olimpiya-İdman Kompleksində, Naxçıvan Dövlət, "Naxçıvan" universitetlərində və Naxçıvan şəhərindəki Uşaq Bərpa Mərkəzində filialları yaradılıb.

Bədii gimnastikanın inkişafı və qızların bu idman növünə cəlbi sahəsindəki səmərəli fəaliyyəti nəzərə alınaraq, eləcə də yaşayış şəraitini yaxşılaşdırmaq məqsədilə aprelin 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Xatun" Bədii Gimnastika Klubunun baş məşqçisi, bədii gimnastika üzrə Azərbaycan Respublikasının idman ustası Humay Qafarovaya Naxçıvan şəhərində yeni mənzil təqdim olunub.

İnsanların sağlamlığına birbaşa təsir göstərən başlıca amillərdən biri də ekoloji mühitdir. Bu mənada, ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə məqsədilə keçirilən iməciliklər də böyük əhəmiyyət daşıyır. Yaşıllıqlarla yanaşı, meyvə bağlarının salınması yalnız ekoloji deyil, iqtisadi səmərəlilik baxımından da keçirilən iməciliklərin gələcək üçün böyük əhəmiyyət kəsb etdiyini göstərir.

Aprelin 8-də muxtar respublikada növbəti iməciliklər keçirilib. Ali Məclisinin Sədri Uzunoba Su Anbarının ətrafında keçirilən iməcilikdə iştirak edib, ərazidə yeni meyvə tingləri əkib.

Onu da qeyd edək ki, ötən illər keçirilən iməciliklər zamanı Uzunoba Su Anbarının ətrafındakı 20 hektar sahədə qoruyucu yaşıllıq zolağı salınıb. Həmin gün isə daha 1 hektar ərazidə minə yaxın müxtəlif meyvə tingləri əkilib. Meyvə bağında damcı üsulu ilə suvarma şəbəkəsi qurulacaq, becərmə işləri aqrotexniki qaydalara uyğun aparılacaqdır.

Bu gün dövlət siyasətində insan amili ön plandadır. Həyata keçirilən çoxşaxəli tədbirlər insanların maddi rifah halının yaxşılaşmasına, onların məşğulluğunun artırılmasına hesablanıb. Gələcəyimiz olan uşaqlar da dövlətin qayğısından kənarda qalmayıb. ***"Mən həyatımın, bu günümün, gələcəyimin xoşbəxtliyini məhz uşaqlara qayğıda, diqqətdə görürəm"***, – deyən görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik illərində ölkəmizdə dövlət uşaq siyasəti yeni forma və məzmun qazanıb, həmin siyasət bu gün də uğurla davam etdirilir. Muxtar respublikamızda uşaqların əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir. Bu baxımdan uşaqların bir şəxsiyyət kimi formalaşmasında, milli dəyərlər ruhunda təlim-tərbiyəsində və məktəbəqədər hazırlığın təmin edilməsində bağçaların rolu böyükdür. Son illər Naxçıvan Muxtar Respublikasında 3-ü hərbi şəhərciklərdə olmaqla, 21 uşaq bağçası tikilərək istifadəyə verilib, bağçalarda uşaqların məktəbəqədər tərbiyəsinin təşkili və sağlam böyümələri üçün müasir şərait yaradılıb. Bu, təhsilin ilk pilləsi kimi uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, istedad və qabiliyyətinin üzə çıxarılmasını, estetik tərbiyəsini təmin edir.

Görülən işlərin davamı olaraq aprelin 14-də Kəngərli rayonunun Qıvraq qəsəbəsində yeni uşaq bağçası istifadəyə verilib.

Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan uşaq bağçasında 2 körpələr, 3 orta, 3 böyüklər və 3 məktəbəhazırlıq qrupları olmaqla, ümumilikdə, 11 qrup fəaliyyət göstərir. Müasir infrastrukturla təchiz edilən bağçada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşları kimi yetişmələri üçün hər cür şərait yaradılıb. 160 uşağın cəlb olunduğu 224 yerlik uşaq bağçasında 40 nəfər işlə təmin olunub.

Ali Məclisin Sədri Kəngərli rayonunun Qıvraq qəsəbəsində uşaq bağçasının istifadəyə verilməsi münasibətilə kollektivi və valideynləri təbrik edib, bağçada yaş qruplarına uyğun təlim-tərbiyə qaydalarının tətbiq olunması, valideyni işləyən, aztəminatlı ailələrdən olan və sağlamlıq imkanları məhdud uşaqların qəbuluna üstünlük verilməsi, uşaqların mütəmadi tibbi müayinədən keçirilməsi və sağlam qidalanmasına diqqət yetirilməsi barədə tapşırıqlar verib.

Son illər əbəs yerə Naxçıvan Muxtar Respublikasını Cənubi Qafqaz ölkələri üçün inkişaf modeli hesab edilən Azərbaycan Respublikasının parlayan ulduzu adlandırmırlar. Çünki qədim diyarımız, həqiqətən də, özünün yüksəliş, inkişaf dövrünü yaşayır. Bir sıra beynəlxalq ekspertlər Naxçıvanı həm də regional cazibə mərkəzi adlandırırlar. Səbəb isə çox sadədir: inkişaf olan məkanlarda əldə edilən nailiyyətlər, tətbiq olunan yeniliklər, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, elmə, təhsilə, mədəniyyətin inkişafına göstərilən xüsusi diqqət və qayğı, aparılan genişmiqyaslı islahatlar, müasir dövrün tələbləri ilə həmahəng olan məqsədyönlü işlərin görülməsi diqqəti cəlb edir, maraq yaradır. Hər kəsi təəccübləndirən digər bir mühüm amil isə bütün bu nailiyyətlərin 25 ildir, davam edən blokada şəraitində əldə edilməsidir. Muxtar respublikaya səfərə gələn nüfuzlu xarici ölkələrin diplomatları da bu məqama xüsusilə diqqət çəkirlər.

Aprelin 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrabla görüşüb.

Ali Məclisin Sədri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə səfiri təbrik edib, Azərbaycan-Almaniya əlaqələrinin inkişaf etdiyini, Naxçıvanın da Azərbaycanın tərkib hissəsi kimi bu əlaqələrdə iştirakçı olduğunu bildirib. Ali Məclisin Sədri muxtar respublikada təhsil sahəsində Almaniya təcrübəsindən istifadənin əhəmiyyətindən danışıb, Naxçıvan Dövlət Universitetində və ümumtəhsil məktəblərində alman dilinin tədris olunduğunu, "Naxçıvan" Universitetinin Almaniyanın ali təhsil müəssisələri ilə əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Görüşdə qarşılıqlı əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Beynəlxalq ekspertlər həm də bunu xüsusilə qeyd edirlər ki, bir ölkənin ən böyük sərvəti müstəqillik, inkişafının təkanverici amili isə aparılan düzgün siyasət nəticəsində yaradılan sabitlikdir. Dünyada baş verən neqativ proseslərin fonunda özünün sosial-iqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası müstəqilliyin bəxş etdiyi inkişafa, sabitliyə qovuşub. Bu gün ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyası muxtar respublikada uğurla həyata keçirilir. Nəticədə, xüsusi şəraitdə iqtisadi inkişaf modelini yaradan Naxçıvan son illər ərzində beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi dünyada şöhrət qazanıb. Quruculuğun möhtəşəm nümunəsi kimi diqqətləri cəlb edən qədim Naxçıvan şəhəri tələb olunan bütün meyarlara cavab verdiyi üçün İslam mədəniyyətinin paytaxtı seçilib və qədim diyar bu missiyanı 2018-ci ildə yerinə yetirəcək. Bütün bunlara ötən illər, aylar ərzində çəkilən zəhmətin, fədakarlığın, işgüzarlığın, vətənpərvərliklə, torpağa bağlılıqla görülən işlərin, ulu öndər Heydər Əliyev yoluna sədaqətin nəticəsində nail olunub. Ötən ayın mənzərəsinə nəzər yetirdikdə bunu bir daha görürük.

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan Televiziyasının baş redaktoru***

# İxtisasartırma kursları davam edir

***Muxtar respublikanın texniki-peşə məktəblərində təlim-tərbiyə prosesinin səmərəliliyinin yüksəldilməsi, gənclərin peşə və fənlərə olan maraq və meyillərinin artırılması, istedadlı gənclərin üzə çıxarılması, onlarla aparılan işin forma və metodlarının təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.***

Əmək bazarında rəqabətədavamlı peşələrdən biri də qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsi perspektivli peşələrdən biridir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahə üçün ixtisaslı kadrlara ehtiyac yarandığından "Naxçıvan Muxtar Respublikasında peşə-ixtisas təhsili üzrə ixtisasların siyahılarının və tədris planlarının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 25 avqust tarixli qərarı ilə ixtisasartırma kursları siyahısına qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsi də daxil edilib. Ötən il sentyabrın 1-dən başlayaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzində bu peşə üzrə ixtisasartırma kursu fəaliyyətə başlayıb. "Naxçıvanqaz" İstehsalat Birliyinin tabeliyindəki şəhər, rayon qaz istismar idarələrində, qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına qrup halında cəlb olunmaları təşkil edilib.

Qeyd edək ki, sözügedən ixtisasartırma kursları 2016-cı il avqust ayının 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Ali Məclis Sədrinin "Naxçıvanqaz" İstehsalat Birliyinə qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlbinin davam etdirilməsi barədə verdiyi tapşırığa əsasən təşkil olunub.

Bu sahəyə göstərilən dövlət qayğısı qaz təsərrüfatında texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə riayət etməklə təbii qazın səmərəliliyinə, peşəkar ixtisaslı işçi qüvvəsinin artırılmasına, istehlakçılara nümunəvi xidmətin göstərilməsinə, həmçinin görülən işlərin keyfiyyətinin yüksəldilməsinə böyük zəmin yaradıb.

Bu peşəyə yiyələnənlər qaz kəmərləri və onların üzərində quraşdırılan qurğu və avadanlıqların yoxlanılması və təmirində, evdaxili qaz avadanlığına texniki baxışda və profilaktik qulluq edilməsi zamanı yerinə yetirilən işlərdə, qəzaların ləğvi və məhdudlaşdırılması işlərində, sənaye, kənd təsərrüfatı və kommunal müəssisələrin qaz avadanlıqlarının istismarında və digər işlərdə uğurla fəaliyyət göstərirlər. Peşə fərdi və ya konveyer formasında həyata keçirilir.

Mərkəzdə kurs fəaliyyətə başlayan vaxtdan bu günə qədər həmin kurslara 47 işçi cəlb olunub. Bir kursun tədris müddəti iki aydır və növbəti kurslara gələn aydan başlanılacaq.

İxtisasartırma kurslarının sonunda müdavimlərə peşə-ixtisas təhsili haqqında sertifikatlar təqdim olunur.

**Mina QASIMOVA**
***"Naxçıvanqaz" İstehsalat Birliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

# Çəkilən zəhmət öz bəhrəsini verir

## Ordubad rayonunda aqrar sahənin inkişafına hərtərəfli şərait yaradılıb

*Dünənə qısa ekskurs, bu günün reallıqları*

Qədim diyarımızın dünənini görən hər bir naxçıvanlı o dövrü, daha dəqiq desək, ötən əsrin sonlarında baş verən hadisələri, həmin hadisələrin insanlara vurduğu zərbələri yaxşı xatırlayır. Anarxiyanın, özbaşınalığın tüğyan etdiyi, insanların bu gündən sabaha ümidlərinin tükəndiyi bir zamanda həyat sanki donmuşdu. İstehsal müəssisələrinin, müxtəlif xidmət sahələrinin fəaliyyəti dayanmış, məhsuldar və bərəkətli torpaqlar sanki sahibsiz qalmışdı...

Bu gün həmin torpaqlarımızdan səmərəli istifadə olunması üçün hərtərəfli şərait yaradılıb. Aqrar sahənin inkişaf etdirilməsi sənayenin də inkişafına stimul olub. Sənaye məhsullarının istehsalında yerli xammaldan istifadə edilməsi də bu gün bir sıra çətinliklərə son qoyub. Bütün bunlar əhalinin məşğulluğunu təmin edib.

Tarixən aqrar bölgə kimi tanınan muxtar respublikada bu sahədə qazanılan uğurlar əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə nəticələnib. Bununla bağlı qəbul edilən, icrası uğurla başa çatan və ya davam etdirilən dövlət proqramları muxtar respublikada insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına xidmət edən dövlət sənədləri kimi əhali tərəfindən yüksək dəyərləndirilir. Bir sözlə, bu gün hər bir naxçıvanlı öz həyatında hərtərəfli dövlət qayğısını görür, bundan ruhlanır, muxtar respublikanın, nəticə etibarilə, ölkəmizin iqtisadi qüdrətinin artmasına öz töhfələrini verir.

Məlumdur ki, iqtisadiyyatın gücləndirilməsində kənd təsərrüfatı məhsulları istehsalının artırılması mühüm əhəmiyyət kəsb edir. Bu isə heç də çətin məsələ deyil. Artıq torpaq kənd adamlarının daimi iş yerinə çevrilib. Onlar bu qiymətli sərvətdən səmərəli istifadə etməklə həm öz rifah hallarını yaxşılaşdırır, həm daxili bazara töhfələrini verir, həm də məhsul bolluğu yaradırlar. Bunun üçün hərtərəfli imkanlara malikdirlər. Hər il bu sahənin inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsi ənənə halını alıb. Aprel ayının 4-də keçirilən "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Açıq Səhmdar Cəmiyyətinin toxumçuluq təsərrüfatına yeni kənd təsərrüfatı texnikaları və toxumçuluq laboratoriyası avadanlıqlarının təqdim olunması mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov deyib: ***"Naxçıvan Muxtar Respublikasında əhalinin 70 faizi kəndlərdə yaşayır və kənd təsərrüfatı ilə məşğul olur. Bu səbəbdən də muxtar respublikada kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. Hər il müasir meliorasiya-irriqasiya sistemləri qurulur, bu hesaba yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. Kənd təsərrüfatı texnikaları torpaq mülkiyyətçilərinə verilir, kənd təsərrüfatı təmayüllü istehsal müəssisələrinin fəaliyyəti dəstəklənir".***

Yuxarıda da bəhs etdiyimiz kimi, artıq o çətin günlər geridə qalıb. Bu gün muxtar respublikamız özünün yeni inkişaf mərhələsindədir. Bu inkişafın təməli isə 15-20 il əvvəl qoyulub. Regionun bütün bölgələrini əhatə edən sürətli sosial-iqtisadi inkişaf bağlar diyarı Ordubadın daimi "yol yoldaşı"na çevrilib.

*Bizim də yolumuz Ordubad rayonunadır*

Bölgəyə gəlişimizdə məqsəd muxtar respublikada ərzaq təhlükəsizliyinin tam təmin edildiyi bir vaxtda Ordubad rayonunda bu istiqamətdə görülən işlərlə tanış olmaqdır. Tarixən bağlar diyarı kimi tanınan bu qədim yurd yeri də ötən əsrin sonlarında, məlum hadisələr zamanı ciddi sınaqlarla üzbəüz qalıb; yüz hektarlarla meyvə və üzüm bağları sıradan çıxıb, məhsuldar torpaq sahələri gözlərini yollara dikib öz sahiblərini gözləyiblər. Yaxşı ki bu intizar bir o qədər də çox çəkməyib. O günlərdə baş verənlərin təfərrüatına varmaq istəmirəm: Bu gün Ordubadda meyvəçiliyin, üzümçülüyün şöhrəti özünə qaytarılmaqdadır; bir qarış torpaq əkilməmiş qalmır, bu da süfrələrin bol və keyfiyyətli ərzaq məhsulları ilə təminatına rəvac verir. İkinci bir məsələ isə bu sahələrin hesabına əhalinin məşğulluğunun təmin edilməsidir.

Rayon İcra Hakimiyyətinin əməkdaşı Etibar İsmayılov deyir ki, ordubadlılar torpağın qədrini bilən insanlardır. Onlar bu qiymətli nemətin səxavətini də yaxşı görüblər. Torpağa bağlılıq bu gün ordubadlı zəhmət adamlarının hər birinin həyatında özünü göstərir. Başqa cür də ola bilməz. Hər il rayonda həyata keçirilən meliorasiya-irriqasiya tədbirləri, torpaq mülkiyyətçilərinin yüksək reproduksiyalı toxumlarla, müasir kənd təsərrüfatı texnikaları ilə təchizatı, müxtəlif dövlət yardımlarından istifadə məsələləri tamamilə həll edildiyindən məhsul istehsalı ilbəil artır. Etibar İsmayılovun sözlərinə görə, son illərdə torpaq mülkiyyətçiləri yerli sortlardan istifadəyə daha çox üstünlük verirlər. Çünki belə sortlar Ordubad torpaqlarında tarixən məhsuldarlığı ilə tanınıb, həm də dadlı-tamlıdır. Bu gün həmin məhsullar muxtar respublikanın ticarət obyektlərində böyük tələbatla satılır.

*Statistik rəqəmlər ürəkaçandır*

Ötən təsərrüfat ilində böyük uğurlara imza atan bölgənin torpaq mülkiyyətçiləri cari ilin bol məhsulunun əsasını qoymaq üçün artıq sahələrdədir. Məlumat üçün bildirək ki, hələ ötən payızdan şum işlərinə başlanılıb, 738 hektarı buğda, 861 hektarı arpa olmaqla, 1599 hektar sahədə taxıl əkini aparılıb.

Yazın ilk günlərindən yenidən şum qaldırılmasına, müxtəlif bitkiçilik məhsullarının əkininə başlanılıb, artıq tərəvəz məhsulları tədarük edilir.

Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, cari ilin məhsulu üçün yaz dövrü 383 hektar sahədə yazlıq bitkilər əkilib. Əkin sahələrinin 164 hektarını qarğıdalısız dənli və dənli-paxlalılar, 139 hektarını kartof, 16 hektarını çoxillik otlar, 13 hektarını birillik otlar təşkil edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası Ordubad rayonunda da uğurla davam etdirilir. Rayonda əkilmiş torpaq sahələrinin 51 hektarını tərəvəz təşkil edir. Yuxarıda qeyd etdiyimiz kimi, artıq tərəvəz məhsulları ticarət obyektlərinə çıxarılır. Proqrama əsasən, bölgədə görülən işlər artıq meyvəçiliyin də şöhrətini özünə qaytarmaqdadır. Cari ildə Əylis düzündə 1 hektar, Şəhriyar qəsəbəsi ərazisində 2 hektar meyvə bağı salınıb. Keçən il salınmış 40, ümumilikdə, son illərdə iməciliklər yolu ilə hasilə gətirilmiş 130 hektardan çox meyvə bağında bərpa işləri aparılıb. Bölgədə üzümçülük də qədim ənənələrə malikdir. Bu ənənələr bu gün elmi əsaslarla davam etdirilir, yeni üzüm bağlarının salınması diqqətdə saxlanılır. Cari ilin ötən dövrü ərzində Sabirkənddə 50 min ədəd üzüm çubuğu torpağa basdırılıb. Payız iməciliklərində həmin çubuqlardan tənək kimi yeni üzüm bağlarının salınmasında istifadə olunacaq.

*Torpaq mülkiyyətçilərinin dedikləri*

Rayonun ən böyük yaşayış məntəqəsi olan Dəstə kəndində qədim meyvə sortlarının bərpası məqsədilə bir çox torpaq mülkiyyətçisi tingçiliklə məşğul olur. Onlardan biri Yusif Yusifovdur. Yusif kişi deyir ki, ölkəmizdə meyvəçilik bölgəsi kimi tanınan Ordubadda məşhur meyvə sortları olub. Ancaq bu gün həmin sortlara çox az təsərrüfatlarda rast gəlinir. Həmin sortların bərpasını qarşımıza məqsəd qoymuşuq. Bundan həm muxtar respublikamız qazanır, həm də qədim meyvə sortları yenidən həyata vəsiqə alır. İqtisadi cəhətdən çox səmərəli olan meyvəçiliyin inkişaf etdirilməsində tingçiliklə məşğul olanlar da bəhrələnirlər. Yetişdirdiyimiz tinglərin muxtar respublikanın hər bir bölgəsində alıcısı var. Hətta ölkəmizin paytaxtında da bu tinglərdən göndərilir.

Uzun illər ictimai təsərrüfatda aqronom işləmiş İsrafil Məmmədov Ordubad rayonunda aqrar sahədə həyata keçirilən tədbirlərə öz münasibətini belə bildirir:– Ordubadın torpaqları məhsuldar, insanları zəhmətkeşdirlər. Onlar həm sovet dönəmində, həm də indi bu qiymətli sərvətə halal qazanc mənbəyi kimi baxıblar. O dövrdə müəyyən çətinliklərlə üzləşsələr də, torpaqları əkilməmiş qoymayıblar. İndi isə torpaq özlərinindir və ondan istifadə üçün geniş imkanlar yaradılıb. Muxtar respublikanın rayonlarının müxtəlif qurumlar tərəfindən hazırlanan torpaq atlasları bu gün hər bir mülkiyyətçiyə daha geniş uğurlar qazanmağa imkan verib. Üstəgəl, mütəmadi olaraq mütəxəssislər tərəfindən aparılan maarifləndirici tədbirlər də bol məhsul istehsalına şərait yaradır. Odur ki, bu gün Ordubadın torpaq mülkiyyətçilərinin qazandıqları uğurları təbii saymaq olar.

Bu uğurlar iqtisadiyyatımızın gücləndirilməsi, insanların maddi rifah halının yüksəlməsi, süfrələrimizin bolluğu, ruzi-bərəkətidir.

Ruzi-bərəkətimiz daha bol olsun.

**Muxtar MƏMMƏDOV**

# Qızılgüldən çəkilən yağ yerli sahibkarlara böyük gəlir gətirə bilər

***Son illərdə muxtar respublikamızda sahibkarlara göstərilən dövlət qayğısı torpaq mülkiyyətçilərini xeyli ruhlandırıb, bunun da nəticəsində məhsuldarlıq yüksəlib, daxili bazarın yerli kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi istiqamətində bir sıra nailiyyətlər əldə edilib. Bu gün bir çox sahibkarlarımız daha çox gəlir gətirən sahələr üzrə araşdırmalar aparmaqda, bu işdə muxtar respublikanın əlaqədar qurumları ilə koordinasiyalı işlər görməkdədirlər. Bütün bu tədbirlərin əsas hədəflərindən biri ixracatın həcmini artırmaq, bu yolla muxtar respublikaya valyuta axınını gücləndirməkdir.***



Qeyd edək ki, bu gün dünyada yaxşı gəlir gətirən sahələrdən biri də ətriyyat və dərman sənayesi üçün xammal ixracına üstünlük verilməsidir. Dünyanın bir çox ölkələri var ki, məhz bu sahədə ixtisaslaşmış təsərrüfatlar vasitəsilə öz büdcələrini formalaşdırırlar.

...Bir çoxlarınız yəqin ki, bağlarda-bağçalarda xoş rayihəli, görünüşü gözoxşayan qızılgüllərlə qarşılaşmısınız. Ancaq qızılgülün yaxşı gəlir mənbəyi ola biləcəyi haqda o qədər də məlumatlı deyilsiniz. Bəli, bu güldən təkcə mürəbbə, gülab, gülqənd və digər məhsullar hazırlanmır, həm də çox yaxşı qazanc əldə edilir. Gəlin bunu birlikdə araşdıraq.

Bu məhsul barədə ətraflı məlumat verməzdən öncə, ümumilikdə, efir yağları barədə xatırlatma yerinə düşər. Bu tip yağlar, bir qayda olaraq, bitkilərdən distillə yolu ilə alınır. Bunlardan ən geniş yayılanı isə qızılgül, lavanda, qərənfil və sitrus yağlarıdır. Onu da qeyd edək ki, dünya üzrə 10 əsas efir yağının illik istehsal həcmi 100 min tondan çoxdur. Onların arasında ən bahalısı qızılgül yağıdır. Onun illik istehsal həcmi 5 tonu keçmir. Efir yağlarının istehsalı üzrə lider ölkələr Fransa, Bolqarıstan, Türkiyə, İran, Çili və İndoneziyadır. Tarixi mənbələrə əsasən, qızılgül yağını ilk dəfə qədim romalılar çəkib, bundan sonra ərəblər bu işi mənimsəyiblər. Orta əsrlərdə isə tarixi Azərbaycan ərazilərində bu sahə əsas gəlir mənbələrindən birinə çevrilib. Vaxtilə Osmanlı imperiyasının müstəmləkəsi olmuş Bolqarıstandan Fransa və İngiltərəyə hər il 1 ton gül yağı göndərilərmiş. Hazırda Bolqarıstan qızılgül yağına görə dünyada birinci yerdədir. Burada söhbət təkcə istehsalın həcmindən getmir. Həmin ölkənin yağı bu sahə ilə məşğul olan digər ölkələrlə müqayisədə daha keyfiyyətlidir. Məlumat üçün qeyd edək ki, müasir dövrdə qızılgül yağı, əsasən, Dəməşq qızılgülündən çəkilir.

Neçə əsrdir ki, istehsal texnologiyası da dəyişmir: yağ almaq üçün ləçəkləri su buxarı ilə distillə etmək kifayətdir. Heç bir bahalı texnologiyaya ehtiyac yoxdur. Lakin proses uzun çəkir. Birinci mərhələdə 500 kiloqram ləçəyin üstünə 1500 litr su əlavə edilərək distillə olunur. Növbəti mərhələdə isə bu maye təkrar distillə edilir. Qalan məhlul bir neçə dəfə süzüldükdən sonra yağ əmələ gəlir. Proses çox böyük əmək və kollektiv iş tələb edir.

Yağ emalının digər forması isə həlledicilər vasitəsilə emaldır. Bu zaman əsas həlledici kimi etil spirtindən istifadə edilir. Proses 60-70 dərəcədə baş tutur ki, bu da məhsulun tərkibində istiliyə həssas olan maddələrin saxlanmasına yardımçı olur. Lakin bu yolla emal edilmiş məhsulda etil spirti qaldığı üçün keyfiyyət aşağı düşür, məhsul bioloji hesab edilmir. Bu yolla 1 litr yağ almaq üçün cəmi 400 kiloqram gül tələb olunur. Ənənəvi yolla alınan məhsulun 1 litri 7 min avroya satıldığı halda, sənaye məhsulunun qiyməti 2 min dolları keçmir. Bu gün Bolqarıstan və Türkiyə hər 2 metoddan, Fransa və Əlcəzair isə yalnız sənaye metodundan istifadə edir. Ortaya belə bir sual çıxır: bu cür bahalı məhsulun istehsalı üçün xərc çəkməyə dəyərmi? Statistikaya diqqət yetirək: əkinin ilk ilində Bolqarıstanın Qazanlıq qızılgülünün 1 hektarından 1,5 ton ləçək toplamaq mümkündür. Üçüncü ildə isə məhsuldarlıq 5 tona çatır. Düzgün qulluq şəraitində 1 gül kolu 30 ildən çox məhsul verir. Bolqarıstanda istehsal olunan yağların hamısını ətriyyat üzrə ixtisaslaşmış "Şanel" şirkəti alır. Digər sortlardan fərqli olaraq bolqar məhsulu antiseptik xüsusiyyətə malikdir. Yetişdiyi ərazidən asılı olaraq qızılgül yağında 275-dək müxtəlif kimyəvi maddə mövcuddur. Bu səbəbdən yağdan əczaçılıq, kosmetika və qənnadı sənayesində geniş istifadə edilir. Obrazlı desək, bu məhsulun müştərisi hər zaman qapıdadır.

Yerli sahibkarların nəzərinə çatdırmaq istərdik ki, bu sahədə reklam və marketinq işinə milyonlar xərcləməyə lüzum yoxdur. Faydasına gəlincə, qızılgül yağı ümumi tənzimləyici rolunu oynayır. Yəni bu məhsuldan alınan preparatlar mədə-bağırsaq, ürək-damar, tənəffüs sistemi və sinir sistemi xəstəliklərinin müalicəsində müsbət təsir göstərir. Elmi mənbələrə görə, gül yağı bütün növ iltihab və yaraları sağaldır, miqren baş ağrılarını aradan qaldırır, hormonal balansı bərpa edir, toxumaları cavanlaşdırır, yaraların sağalmasını sürətləndirir, həzm sistemini tənzimləyir, disbakteriozu aradan qaldırır. Lakin həkimlər xəbərdarlıq edir ki, təmiz gül yağını heç bir halda birbaşa istifadə etmək olmaz. Bu cür istifadə ziyan verə bilər.

Bu gün əkin əkməyə bir qarış torpağı belə olmayan, iqlimi buna imkan verməyən ölkələr istixanalar vasitəsilə qızılgül yetişdirməklə milyonlarla vəsait əldə edirlər. Qeyd edək ki, əvvəllər ölkəmizdə də qızılgül istehsalına xüsusi önəm verilib, qızılgül yağı istehsalından yaxşı gəlir əldə edilib. Ancaq ötən əsrin 90-cı illərinin əvvəllərində baş verən məlum hadisələr bu gəlirli sahə ilə məşğul olan təsərrüfatları da fəaliyyətsiz hala gətirdi. Hazırda ölkəmizin cənub bölgələrində bu sahənin dirçəldilməsinə başlanılıb.

Naxçıvanda da bu baxımdan geniş imkanlar mövcuddur. Bu gün muxtar respublikada qızılgül nəinki düzənlik sahələrdə, hətta dəniz səviyyəsindən 2720 metr yüksəklikdə də bitir. Bu nadir hadisəyə Culfa rayonunun ucqar Boyəhməd kəndinin cənub-şərqində yerləşən Göydağın zirvəsində rast gəlinib. Adi bir kol bitkisinin belə, olmadığı yerdə qızılgülün bitməsi onu deməyə əsas verir ki, ucqar dağ kəndlərində sahibkarlığa maraq göstərənlər bu bitkidən yaxşı gəlir əldə edə bilərlər. Nəzərə alsaq ki, qızılgül yağının 1 litri 7 min avrodur, onda sahibkarların bu sahəyə diqqət yetirəcəklərini əvvəlcədən təxmin etmək o qədər də çətin deyil. Muxtar respublikanın torpaq-iqlim xüsusiyyətləri də qızılgül əkinləri üçün yaxşı imkanlara malikdir.

Sevindirici haldır ki, muxtar respublikada bu sahəyə maraq artmaqdadır. Ötən ilin payızı, cari ilin yaz iməciliklərində Ordubad rayonu ərazisində, Əylis düzündə, ümumilikdə, 10 hektar ərazidə 35 min ədəd qızılgül kolu əkilib. Yeri gəlmişkən onu da vurğulayaq ki, sovet dönəmində Ordubad rayonunun Dəstə kəndindəki sovxozun ərazisində qızılgül becərilməsi ilə məşğul olunub. O vaxt Ordubad şəhərində fəaliyyət göstərən konserv zavodunda istehsal olunan dadlı-tamlı qızılgül mürəbbəsi keçmiş SSRİ-nin müxtəlif ünvanlarına göndərilirdi. Bu gün ordubadlıların həyətyanı təsərrüfatlarında da qızılgüllərdən maksimum şəkildə faydalanılır.

...Qızılgülün vətəni Şərq ölkələridir və o, Şərq xalqları arasında böyük mistik məna daşıyır. Bir çox xalqlar qızılgülü tanrıların gülü hesab edir, tanrıların bu gülün ləçəklərinin qoxusu ilə qidalandığına inanırlar. Məhsulları qızıldan da qiymətli olan bu Tanrı gülünü Tanrının sevdiyi torpaqlarda daha çox əkməyin, bu sahəyə daha çox önəm verməyin vaxtı gəlib çatıb.

**Səbuhi HÜSEYNOV**

## Naxçıvanda pauerliftinq və bench press idman növü üzrə beynəlxalq turnirin açılış mərasimi keçirilib



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda pauerliftinq və bench press idman növü üzrə beynəlxalq turnirin açılış mərasimi olub.*

Turnirin açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov iştirakçıları salamlayaraq deyib ki, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə digər sahələr kimi, idmanın inkişafına da böyük diqqət göstərilib, idman və bədən tərbiyəsi dövlət siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilib. Bu siyasət bu gün də uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov vurğulayıb ki, ölkəmizdə idman sahəsində həyata keçirilən tədbirlər muxtar respublikamızı da əhatə edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində bu sahənin maddi-texniki bazası gücləndirilib, idmançılarımızın müxtəlif beynəlxalq yarışlarda iştirakı təmin olunub.

Nazir deyib ki, təkcə 2017-ci ilin ötən dövrü ərzində idmançılarımız Azərbaycan birinciliklərində 55, beynəlxalq turnirlərdə 32, Asiya çempionatlarında 2 medal qazanıblar. Qazanılan uğurlar deməyə əsas verir ki, muxtar respublikanın idmançıları Azərbaycanın idman şərəfini layiqincə qoruyurlar.

Dünya Pauerliftinq Federasiyasının prezidenti Mayk Sviney qədim Naxçıvan torpağında olmaqdan məmnunluğunu ifadə edib. Bu cür beynəlxalq turnirlərin keçirilməsində göstərilən dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirib.

Azərbaycanda idman sahəsində əldə olunan nailiyyətlərdən danışan Azərbaycan Pauerliftinq Federasiyasının prezidenti Ələddin Əliyev turnir iştirakçılarına uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Dünya Pauerliftinq Federasiyası tərəfindən təltif olunduğu Fəxri Diplom və Xatirə Medalı Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarova, Azərbaycan Pauerliftinq Federasiyasının fəxri prezidenti Sevil Əliyevanın təltif olunduğu Fəxri Diplom Azərbaycan Pauerliftinq Federasiyasının prezidenti Ələddin Əliyevə, Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimovun təltif olunduğu Fəxri Diplom Azərbaycan Respublikasının gənclər və idman nazirinin müavini İsmayıl İsmayılova təqdim edilib.

Turnir açıq elan olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bədii hissədən sonra yarışa start verilib.

Turnirdə Azərbaycanı və onun Naxçıvan Muxtar Respublikasını, eyni zamanda Türkiyəni də təmsil edən 60-dan çox idmançı 12 çəki dərəcəsində qüvvəsini sınayacaq. Yarışa mayın 7-də yekun vurulacaq.

## *"Qarabağ"* Azərbaycan kubokunun qalibi olub



*Mayın 5-də Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən futbol üzrə Azərbaycan kubokunun qalibi müəyyənləşib.*

Final görüşündən əvvəl təntənəli açılış mərasimi təşkil olunub. Azərbaycan Respublikasının Əməkdar artisti Röya Ayxanın, Şərur Xalq Yallı Ansamblının, Naxçıvan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının ifalarında rəngarəng musiqi və rəqs nömrələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Sonra oyuna start verilib. Final oyununda "Qarabağ" və "Qəbələ" komandaları üz-üzə gəlib. Birinci hissədə "Qəbələ"nin müdafiəçisi Tellur Mütəllimov zədələnib və oyunu sona qədər davam etdirə bilməyib. Onu Roman Hüseynov əvəz edib. Birinci hissə qolsuz bərabərliklə başa çatıb. Oyunun ikinci hissəsində "Qarabağ"ın futbolçusu Mahir Mədətov vurduğu qolla komandasını hesabda irəli çıxarıb. 68-ci dəqiqədə "Qəbələ"nin oyunçusu Ürfan Abbasov avtoqola imza ataraq "Qarabağ"ı 2:0 hesabı ilə irəli çıxarıb.

Azərbaycan kuboku uğrunda final oyunu "Qarabağ"ın 2:0 hesablı qələbəsi ilə başa çatıb.

## *"Naxçıvan-2017"* Beynəlxalq Şahmat Festivalında üçüncü turun oyunları başa çatıb

*Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalında üçüncü turun oyunları başa çatıb.*

"A" qrupunda keçirilən üçüncü turun oyunlarında belçikalı qrossmeyster Vadim Malaxatko (2487) azərbaycanlı qrossmeyster Nicat Abbasovla (2575), rusiyalı qrossmeyster Vladimir Burmakin (2508) belarus qrossmeyster Nikita Mairovla, rusiyalı qrossmeyster Sergey Volkov (2617) isə azərbaycanlı şahmatçı Ülvi Sadıqovla (2467) xalları yarı bölüblər.

Beləliklə, turnir cədvəlində ilk üç yerdə Vadim Malaxatko, Nikita Mairov və Nicat Abbasov qərarlaşıblar.

Ölkənin müxtəlif regionlarından 92 zəka sahibinin mübarizə apardığı "B" qrupunda da liderlər məlum olub. 5 şahmatçı hər üç turda qələbə qazanıb və liderliyə yüksəlib. Bunlar Babək Cəfərli, Çingiz Rzayev, Ağazahir İlyaslı, İlkin Rəhimli və Uğur İlyaslıdır.

"Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının "C" qrupunun liderləri naxçıvanlı zəka sahibləridir. Belə ki, 12 yaşlı Həsən Həşimli (Culfa), Ayxan Zeynalov (Şərur), 10 yaşlı Elçin Rza (Ordubad) üç xalla ilk üç pillədə qərarlaşıblar.

**Tural AĞAYEV**

*Yazmasaq, olmur*

## Təbiətin dibini-kökünü "qazanlar"...

***Baldırğan, çiriş, əvəlik, kəklikotu, uşqun, bolu, cacıq, çaşır, dağ göbələyi, yarpız, nanə… Sayı yüzlərlə olan Naxçıvanın bu əvəzsiz nemətlərinin adı çəkiləndə o adam olmaz ki, ağzı sulanmasın.***

Bu diyarın dağlarına yaraşıq, insanlarına şəfa verən bitkilər tarixən süfrələri bəzəyib, dar gündə, çətin anda köməyə çatıb. Naxçıvan mətbəxinə min rəng, min çalar qatıb, milli kulinariyamıza mövsümi və sağlam qidalanma mədəniyyəti gətirib. Nənə-babalarımız bu bitkilərdən təkcə qida yox, həm də cansağlığı aldıqlarına görə onları qoruyub, əzizləyib, hər kolunun, hər qanadının qədrini biliblər.

İndinin özündə də bu nübar məhsullar Naxçıvanın dükan-bazarlarında dolub daşır, ucuz qiyməti, keyfiyyəti ilə alıcı rəğbəti qazanır, dadı-tamı ilə süfrələri bəzəyir. Diqqət etsəniz, Naxçıvana gələn qonaqlar buradan gedəndə mütləq əllərindəki çantanın birinə Naxçıvan məhsullarını yığırlar. Elə Bakıya, Şəkiyə pay göndərənlər də onlar kimi…

Naxçıvanın balı, pendiri, balığı, meyvəsi, limonu kimi onun dağ pencərlərinin də şöhrəti sərhədlər aşaraq dünyanı dolaşır. Yazda-yayda fərası, qışda isə qurudulmuşu min bir dərdə dərmandır. Ona görə də bu bitkilər şəhər sakinləri üçün sağlam qida, kənd sakinləri üçün isə sağlamlıqla bərabər, həm də qazanc yeridir.

Bəli, dostlar, bu yazdıqlarımın hər biriniz şahidisiniz və belə deyək ki, bu, aysberqin görünən tərəfidir. Bilirəm, o dəqiqə sual çıxır ki, bəs görünməyən tərəfi nədir?! Görünməyən tərəfi odur ki, son vaxtlar bu əvəzsiz nemətləri soyub-soğana çevirən, dibli-köklü çıxarıb axırına çıxan, onlara qənim kəsilən adamlar peyda olub. Təsəvvür edin ki, onlar bilərəkdən və ya bilməyərəkdən kəklikotunu, göbələyi, çaşırı, baldırğanı, uşqunu… o qədər kökündən çıxarıb təlislərə doldururlar ki, belə getsə, gələcək nəsillər bu nemətləri yuxusunda-filan görəcəklər.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov deyir ki, Naxçıvanda kəklikotunun 7 növü bitir. Onlardan ikisindən istifadə etmək olar. Digərlərində kamfora birləşmələri çoxdur. Onları daxilə qəbul etmək olmaz, içəndən sonra ürəkbulanma və digər fəsad verə bilər. İndi gəlin baxaq görək, buna kim diqqət edir?! Heç kim, hamı kəklikotuna ağına-bozuna baxmadan yığıb sovurur.

Təbii ki, hər bir bitkinin normal yığılma




qaydası var. Dağ kəndlərində ömrünü təbiətlə harmoniyada keçirən insanlar bu qayda-qanunu yaxşı bilirlər. Məsələn, kəklikotunun çiçəkli hissəsi baş barmaqla, göbələyin torpaqdan üstə qalan hissəsi isə bıçaqla kəsilərək yığılmalıdır. Baldırğan gövdəsindən bıçaq və ya qayçıyla kəsilərək yığılmalı, yemişanın, zirincin meyvələrinin hamısı toplanmamalı, heç olmasa, gələcək pöhrələr üçün toxumluq və təbiətin qədrini bizdən yaxşı bilən quşlar üçün qida, yem saxlanmalıdır.

Amma təəssüf ki, çoxları bu qaydalara əməl etmirlər. Bellə-kürəklə bu bitkiləri yığıb kisələrə doldurur, yemişan, zirinc ağaclarının "təpəsi"nə paya ilə çırpıb meyvələrini yerə tökür, bar budaqlarını məhv edirlər ki, bu da ən azı vicdansızlıqdır, onun kökünə balta çalmaqdır, bitkinin nəslini kəsməkdir.

Uzağa getmirəm, ötən il Şahbuz rayonunun Kükü kəndində bu mənzərənin şahidi olanda elə bil başıma qaynar su tökdülər. Geniş bir baldırğanlığı təbiətin qoynunda dincəlməyə gələn və ona naxələf çıxan qənimlər rəsmən şumlamışdılar. Təsəvvür edin, bu kənddəki səfalı və gül-çiçəkli "Dərə boğazı"nda baldırğanları bellə qazıb axırına daş atmışdılar. Belə "şumlamaların" nəticəsidir ki, bu bitki həmin ərazidə tədricən qeybə çəkilir.

Şahbuz rayonunun Yuxarı Qışlaq kəndinin kəfşənlərində isə min dərdə dəva olan uşqunun başına bu cür toy tutmuşdular. Hətta kəkliotunu da qazıb kökündən çıxarıb aparanlar az deyil. Təkcə Şahbuzun yox, elə Şərurun, Ordubadın, Culfanın kəndlərində də təbiətə qənim kəsilən, bu əvəzolunmaz nemətlərə divan tutan sakinlər çoxdur. Xüsusən də belə yarıtmaz əməllərə qol qoyanlar bitkilərdən bir o qədər də başı çıxmayan, şəhərdə, aran kəndlərində yaşayanlardır. Bir də baxırsan, aran kəndlərdən şəhərin oğlan çağında bir "QAZ-53" arvadlı-kişili adam gəldi, axşama qədər bellə-külünglə yığdıqları bitkiləri maşına doldurub qayıtdılar. Vallah, insaf və vicdan insanda çox yaxşı şeydir, o da ola! İndi belə adamlarla nə edəsən, yaxud nə deyəsən? Düşüncəsi, dünyagörüşü Əliabaddan o tərəfə getməyən bu adamlar fikirləşmirlər ki, axı bu təbii sərvət sabah bizim oğul-uşaqlarımıza şəfa və qida verəcək... Əgər onlar fikirləşmirsə, heç olmasa, biz fikirləşək və gəlin belə adamlara qarşı mübarizə aparaq, yapışıb yaxalarından, yeri gəlsə, bir silkələyək.

Əlbəttə, təkcə yaxadan yapışmaqla iş bitmir, bu gün həm də ekoloqların, təbiətşünasların, yerli icra hakimiyyəti orqanlarının, kütləvi informasiya vasitələrinin bu məsələ ilə əlaqədar davamlı maarifləndirmə işləri aparmasına da böyük ehtiyac vardır. Yoxsa bir gün baxıb görəcəyik ki, havada durna tutacam deyə-deyə əlimizdəki sərçəni də uçurtmuşuq.

Bir sözlə, hər kəs bu məsələlərdə papağını qabağına qoyub fikirləşməlidir ki, əkmədiyimiz, dibinə bir qaşıq belə su tökmədiyimiz bu bitkiləri rahat yığırıq, kimsə bizə mane olmur, yolumuzu kəsib vergi, rüsum istəmir. Bəs onda niyə biz onların axırına çıxırıq?! Nə edək, bu məsələdə də gözümüzü dövlətə dikək?! Axı dünyanın harasında dövlət hər bir adamın başının üstünə bir polis, bir nəzarətçi qoyur, mənim əzizlərim?! Ən böyük nəzarətçi, ən böyük ittihamçı elə hər birimizin vicdanı deyilmi?!

Vicdan demişkən, xatırlayıram ki, 20-25 il bundan əvvəl Naxçıvanda alınə "Qoşalülə", "Beşaçılan", "Qeyka" alanlar dağda-daşda bütün günü kəklik, qaban, dağ keçisi, dovşan dalına düşürdülər. Ona görə də qısa zamanda muxtar respublikanın faunasında yer alan nadir heyvan növləri nəsli kəsilmək təhlükəsi ilə üz-üzə qaldı, bir qismi isə mərmi səsindən, barıt qoxusundan canlarını qurtarmaq üçün sərhədlərimizdən kənara çıxdılar.

Sonrakı mərhələdə bu sahədə tarixi əhəmiyyətli bir addım atıldı, geniş maarifləndirmə işlərindən sonra 2001-ci ildən muxtar respublikada ova qadağa qoyuldu, bir neçə qoruq və yasaqlıq, təbii parklar yaradıldı. Təbii ki, bu qərar bir qrup dovşan dalına düşənlərin və ya dovşan qovanların, yemişan ağaclarının altında 3-4 həftəlik qaban balalarını şaqqalayıb közə düzənlərin, sonra da araqla içəri ötürənlərin xoşuna gəlmədi (Bu gün yuxarıda qeyd etdiyim dərman bitkilərinə, dağ pencərlərinə divan tutanlar da həmin qaban kababı ilə günlərini keçirənlərdən fərqlənmirlər). Amma qazanan ana təbiət oldu, onu sevən, göz bəbəyi kimi qoruyan insanlar oldu. İndi Naxçıvanın dağlarında bəbir sürülərinin, muflonların, dağ keçilərinin, cüyürlərin, kəkliklərin sayı-hesabı yoxdu. Vaxt vardı durbinlə axtardığımız, kinolarda gördüyümüz dağ keçiləri indi evimizin qənşərində otlayır.

Yeri gəlmişkən, 2014-cü ildə Naxçıvanda səfərdə olan və bütün bu gözəllikləri görən Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun Qafqaz Təmsilçiliyinin direktoru George Sanadiradze muxtar respublika rəhbərinə göndərdiyi məktubda ova qoyulmuş moratoriumu, xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasını, yerli əhalinin məlumatlandırılmasını,




təbiətin gələcək nəsillər üçün qorunub saxlanmasını şövqlə və minnətdarlıqla qeyd etmiş, dünya ekoloqlarına nümunə göstərmişdi.

Təbiəti sevməyən heç kəsi və heç nəyi sevməz. Baldırğanın, kəklikotunun, uşqunun, çaşırın kökünü qazmaq bizə heç nə verməz. Gəlin bu gün tamahımıza sahib çıxaq, ona dur deyək ki, sabah tamarzı qalmayaq. Çətin deyil, hər birimiz faunamızı qoruduğumuz kimi, floramızı da qoruya, ona balta çalanlara qarşı mübarizə aparıb nümunə göstərə bilərik. Görkəmli təbiətşünas alimimiz, akademik Həsən Əliyev "Həyəcan təbili" kitabında bunun əhəmiyyətindən belə yazırdı: *"Biz təbiətimizi nə qədər sevsək, onu nə qədər yaxşı mühafizə etsək, o da bizə o qədər qida və şəfa verəcəkdir".*

**Sahil TAHİRLİ**
***jurnalist***

### *İtmişdir*

Nərimanlı Hakim İlqar oğlunun adına Naxçıvan Müəllimlər İnstitutu tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 375